

"Yaşamaq istəyirsinizsə Tehranı tərk edin".

Bu sözləri İranın Ətraf Mühitin Qorunması və Ekologiya Təşkilatının rəhbəri xanım Məsumə Ebtekar bu gün Tehranın Şəhər Şurasında keçirilən iclasda çıxışı zamanı deyib.

Bu barədə "Mehr News" agentliyi məlumat verir.

Ebtekar deyib ki, Tehranda və digər şəhərlərdə havanın çirklənməsinin əsas səbəbi standarta uyğun olımayan və keyfiyyətsiz benzindən istifadədir: "Xəstə və körpə uşaqları olan ailələrə və yaşlılara məsləhətim budur ki, çirkli havadan qorunmaq üçün Tehranı tərk etsinlər. Biz hamımız xəstə uşaqlara görə narhatıq və tez bir zamanda həll yolu onların Tehrandan çıxarılmasıdır".

İran KİV-nin məlumatına görə, İranın paytaxtı Tehran şəhərinin Hava Keyfiyyətinə Nəzarət Şirkətinin statistikasına əsasən, son 25 gün ərzində Tehranda cəmi 2 saat təmiz hava olub, qalan vaxtlarda havanın çirklilik dərəcəsi kritik həddə çatıb.

Tehran şəhərində, Rey və Şimiranatda havanın həddən artıq çirkli olması ilə əlaqədar müxtəlif vaxtlarda bütün idarə, təşkilat və məktəblərdə tətillər olur.

"NYC Partnershir Consulting" beynəlxalq reytinq şirkəti 2013-cü ilin əvvəlində planetin ən çirkli şəhərlərinin siyahısını açıqlayıb. Şirkətin mütəxəssisləri dünyanın 245 iri şəhər və paytaxtını müqayisə edərək ən çirkli 30 şəhərin siyahısını hazırlayıb. Bu zaman havanın çirklənməsinin səviyyəsi, içməli suyun yararlılıq dərəcəsi, tullantıların istifadə və emal olunmasının dərəcəsi, tibbi xidmətin və avadanlığın səviyyəsi, infeksion xəstəliklərin mövcudluğu faktorları nəzərə alınıb. Siyahıda Tehran 29-cu yerdədir.

Artıq paytaxt Tehranla yanaşı, Kərəc, İsfahan, Məşhəd və Təbriz şəhərlərində də hava həddən artıq çirkli olur və kritik vəziyyətə çatır.